

**Ağstafa Rayon Mədəniyyət və Turizm şöbəsi nəzdində 13 mədəniyyət evi, 25 klub, 49 kitabxana-filialı özündə birləşdirən 1 Mərkəzi Kitabxana Sistemi, 1 musiqi məktəbi, 3 muzey, 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. İşimizi Rayon İcra Hakimiyyəti Aparatının, Respublika Mədəniyyət və Turizm Nazirliyinin əmr və göstərişlərinə uyğun qurmağa çalışır, milli-mənəvi dəyərlərimizin qorunması, inkişaf etdirilməsi, uşaq və yeniyetmələrin musiqi biliklərinə yiyələnməsi, Azərbaycan və dünya klassiklərinin, müasir ədəbi nümunələrin təbliği, turizmin təşəkkül tapması, tarix və mədəniyyət abidələrinin, məişətimizə aid qədim eksponatların qorunaraq gələcək nəsillərə çatdırılması istiqamətində əhaliyə müxtəlif sahələrdə mədəni xidmətlər göstəririk.**

# Uğurlarımızla kifayətlənmirik

***Son bir ildə kollektivimiz tərəfindən milli bayramlarımıza, əlamətdar günlərə, yubileylərə həsr edilmiş 55 (əlli beş) adda müxtəlif səpgili mədəni-kütləvi tədbir hazırlanaraq nümayiş etdirilmişdir.***

Ümummilli liderimizin adını daşıyan Muzey-Mərkəzdə Respublika əhəmiyyətli "Heydər Əliyev Muzey və Mərkəzlərinin işinin təşkili və fəaliyyətinin təkmilləşdirilməsi" mövzusunda seminar-müşavirə keçirilmiş, müşavirənin işində Mədəniyyət və Turizm naziri Ə.Qarayev, Prezident Aparatının Ərazi İdarəetmə şöbəsinin müdiri Z.Nağdəliyev, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, respublikanın bütün rayonlarından mədəniyyət və turizm şöbələrinin müdirləri, rayon icra hakimiyyəti başçılarının təhsil, səhiyyə və mədəniyyət üzrə müavinləri və Heydər Əliyev muzeylərinin direktorları iştirak etmişdir.

Hesabat dövründə respublika əhəmiyyətli müsabiqələrə, o cümlədən Gəncə şəhərində keçirilən "Xor kollektivlərinin VI Respublika müsabiqəsi"nə, Yevlax şəhərində keçirilən "Gənc aşıqların IV Respublika müsabiqəsi"nə, "Azərbaycanım mənim" başlıqlı vətənpərvərlik mahnı ifaçılarının müsabiqəsinə, Lənkəran şəhərində təşkil edilmiş "Deyilən söz yadigardır" başlıqlı IV Respublika bədii qiraət müsabiqəsinə, Lənkəran şəhərində "Ailə Günü"nə həsr edilmiş tədbirə, Bərdə şəhərində təşkil edilmiş "İstedadlı uşaqlar" mahnı festivalına, Bakı şəhərində keçirilən Rəqs kollektivlərinin II Respublika baxış festivalına, I Ümumrespublika Dekorativ tətbiqi sənət festivalına, "Şərq-Qərb dünyası" uşaqların gözü ilə beynəlxalq rəsm müsabiqəsinə, Milli oyunların bərpası məqsədilə Şəki şəhərində keçirilən Prezident kuboku uğrunda "Çövkən" Atüstü oyunlarına yüz nəfərdən artıq nümayəndənin göndərilməsi təmin edilmiş, fərqlənənlər fəxri fərman, diplom və pul mükafatları ilə təltif edilmişlər.





Rayonumuzun ərazisində yerləşən Qırlı, Tatlı, Poylu, Saloğlu, Soyuqbulaq kəndlərində yerləşən "N" hərbi hissələrində xidmət edən əsgər və zabitlər qarşısında vətənpərvərlik mövzusunda silsilə mədəni kütləvi tədbirlər təşkil edilmiş, əsgərlərin asudə vaxtlarında istifadə etmələri üçün 122 nüsxə bədii ədəbiyyat bağışlanmışdır.

Rayon İcra Hakimiyyətinin başçısı cənab E.Usubovun tövsiyəsi və yaxından köməyi ilə yaradılmış və ətrafında 16 (on altı) nəfər rəqs həvəskarını birləşdirən "Ləman" rəqs ansamblının üzvlərinə milli paltarlar tikilərək istifadəyə verilmiş, keçirilən tədbirlərin əksəriyyətində ansamblın çıxışları təmin edilmişdir.

Ümumilikdə il ərzində səhnədə çıxışları nəzərdə tutulan ansambl, müğənni və aparıcılara, "Dastan" aşıqlar ansamblının üzvlərinə, "Çövkən" milli oyunlarının komandasına yeni səhnə paltarları tikilmişdir.

Bir neçə təşkil etdiyimiz tədbirlər müxtəlif televiziya kanalları tərəfindən o cümlədən "AzTV", "İctimai", "Xəzər", "SmTV" lentə alınaraq, geniş auditoriya qarşısında nümayiş etdirilmişdir.

Rayon icra hakimiyyəti rəhbərliyinin dəvəti ilə professional teatr kollektivlərinin Şuşa, Yerevan, Qazax Dövlət Dram Teatrlarının müxtəlif mövzulara həsr edilmiş tamaşaları rayon teatrsevərlərinin ürəyincə olmuşdur.

Hər ayın 28-də mədəni-maarif işçiləri ilə seminar müşavirələrin təşkili davam etdirilmişdir. Seminar müşavirələrdə görülmüş işlərə yekun vurmaqla, qarşıda duran vəzifələr müzakirə edilmişdir.

Hesabat ilində Ağstafa rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində kitabın təbliği, oxuculara xidmətin yüksəldilməsi sahəsində bir sıra işlər görülmüşdür.

Kitabların təbliği, oxucuların ideoloji tərbiyəsi üçün müxtəlif formalı kütləvi tədbirlər keçirilmiş, kitab sərgiləri təşkil edilmişdir.

Məlumat-biblioqrafiya şöbəsi tərəfindən "Qələbə-65" rubrikalı kartotekanın tərtibinə başlanmışdır. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"na əsasən xüsusi tədbirlər planı tərtib edilmiş, plana əsasən MKS-ə 2 kompyuter dəsti alınmış, kompyuterlə tanışlıq məqsədilə bütün kitabxanaçıların Heydər Əliyev Mərkəzində kompyuter kurslarında iştirakı təmin edilmişdir.

Respublika Prezidentinin kitabxanaların informasiyalaşdırılması haqqında sərəncamlarına müvafiq olaraq MKS-də mövcud olan kompyuter internet şəbəkəsinə qoşulmuş, kitabxananın elektron poçtu açılmış, rayon telekommunikasiya qovşağının köməkliyi ilə veb-sayt yaradılmışdır.

Respublika Mədəniyyət Nazirliyinin tapşırığına əsasən "Kitab abidələr" toplusunun tərtib edilməsi məqsədilə, şəxsi evlərdə saxlanan 40 (qırx) adda nadir kitablar aşkarlanaraq fotoşəkilləri nazirliyə təqdim edilmiş, Gürcüstan Respublikasının Marneuli şəhərində yerləşən "Azərbaycanlıların Mədəniyyət Mərkəzinə" 150 nüsxə bədii ədəbiyyat nümunəsi göndərilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin 12 yanvar 2004-cü il tarixli, 56 saylı sərəncamına əsasən hədiyyə edilən 2142, M.F.Axundov adına Milli Kitabxana tərəfindən hədiyyə edilən 194, müəllif və oxucular tərəfindən 37 nüsxə kitab kitabxana-filiallara paylanılmışdır. Hazırda MKS-in kitab fondu 436981

nüsxə təşkil edir ki, onlardan da 56221 nüsxəsi latın qrafikalı kitablardır. Respublika Mədəniyyət və Turizm Nazirliyinin göstərişinə əsasən məzmunca əhəmiyyətini itirmiş, oxucular tərəfindən cırılaraq istifadəyə yararsız hala salınmış 42894 nüsxə kitab fondlardan çıxarılaraq təkrar-istehsal müəssisəsinə təhvil verilmək üçün hazırlanmışdır.

Rayonumuzda Heydər Əliyev Muzeyinin fəaliyyətə başlaması mədəni mühitimizə yeni ab-hava gətirmişdir.

Mədəniyyət və Turizm naziri cənab Ə.Qarayevin xüsusi sərəncamı ilə Muzeyə "Muzey-Mərkəzi" statusu verilmiş, muzey əmək haqqının ödənilməsi üzrə I qrupa aid edilmiş, iş ahənginin yüksəldilməsi məqsədilə hörmətli icra hakimiyyəti başçımız E.Usubovun xüsusi səyi nəticəsində muzeyə əlavə ştat vahidləri ayrılmışdır.

Hal-hazırda "Heydər Əliyev Muzey-Mərkəzi"nin xidmətlərindən rayon ictimaiyyətinin əksər təbəqələri istifadə edir.

Heydər Əliyev Muzey-Mərkəzi onlarla ümumrespublika və rayon əhəmiyyətli ədəbi-bədii gecə, yığıncaq, yubiley, seminar-müşavirə və s. tədbirlərə ev sahibliyi etmiş, təşkil edilən tədbirlərdə minlərlə həmyerlimiz iştirak etmişdir.

Həmyerlimiz, xalq şairi Hüseyn Arifin 85 illik yubileyi ərəfəsində şairin ev muzeyinin ekspozisiyası demək olar ki, yenidən qurulmuş, şairin yubileyinə həsr edilmiş silsilə tədbirlər keçirilmişdir.

"Hüseyn Arif-85" başlıqlı yubiley axşamı, Azərbaycan ədəbiyyatının tanınmış simalarının adını daşıyan, "Şairlər Kompleksi" adlanan ərazidə, xüsusi üslubda təşkil edilmiş tədbirdə rayon ziyalıları ilə birlikdə Respublika miqyasında tanınmış elm və ədəbiyyat xadimləri iştirak etmişlər.

Tarix-diyarşünaslıq muzeyinin əməkdaşları tərəfindən müxtəlif dövrlərə aid 50-dən artıq eksponat əldə edilərək muzey fonduna daxil edilmişdir.

Xalq şairimiz H.Arifin adını daşıyan 7 illik uşaq musiqi məktəbində əsas diqqət şagirdlərə musiqi biliklərinin öyrədilməsində keyfiyyət göstəricilərinin artırılmasına yönəlmişdir. Məktəbin kollektivi respublika əhəmiyyətli müsabiqələrdə, keçirilən mədəni-kütləvi tədbirlərdə yaxından iştirak etmiş, yeni istedadların aşkarlanmasında əzmkarlıq göstərmişlər.

Yüksək pedaqoji qabiliyyətə malik müəllimlər tərəfindən ustad dərsləri keçirilmiş, akademik konsertlər, siniflərarası müsabiqələr təşkil edilmişdir.

Məktəbin muğam sinfində təhsil alan Həsənli Şəfəq Tofiq qızı Bərdə şəhərində keçirilən "İstedadlı uşaqlar" festivalında Mədəniyyət və Turizm Nazirliyinin diplomuna layiq görülmüş, muğam musiqisində özünü sınayan azyaşlı Əsgərov Xanızadəyə rayon icra hakimiyyətinin başçısı E.Usubovun sərəncamı ilə hər ay 50 manat məbləğində təqaüd təyin edilmişdir.

Maddi- texniki bazanın inkişaf etdirilməsi diqqət mərkəzində olmuşdur.

Xalq şairi H.Arifin ev-muzeyinin daxili hissəsi, işıqlanma sistemi tamamilə yeniləşdirilmiş, kombi istilik sistemi quraşdırılmış, yeni sərgi, stendlər düzəldilmiş, inventar avadanlıqlar təzələnmişdir.

Rayon mədəniyyət evinin foyesində, 3 xidmət iş otağında təmir işləri aparılmış, musiqi məktəbinin dam örtüyü dəyişdirilmiş, sinif otaqlarında təmir işləri aparılmış, Mərkəzi Kitabxana Sisteminin yerləşdiyi binanın həyətinə bəzəkli daşlar döşənmiş, Ağstafa- şəhər mədəniyyət evinin (Aşıqlar evinin) döşəməsi yenisi ilə əvəz edilmiş, cari təmir işləri aparılmışdır.

Görülən işlərlə bərabər qeyd etməliyəm ki, maddi-texniki bazası günün tələblərinə cavab verməyən müəssisələrimiz, işinin öhdəsindən gələ bilməyən işçilə-







rimiz də var.

Günün tələblərinə cavab verməyən, maddi-texniki bazası dövrlə ayaqlaşmayan mədəniyyət müəssisələri əsasən kənd mədəniyyət müəssisələrini əhatə edir. Əvvəllər kənd yaşayış məntəqəsində fəaliyyət göstərən klub və kitabxanalar sovxozlar tərəfindən təmir-bərpa edilirdi.

Sovxozların ləğvindən sonra vəziyyət xeyli dəyişmişdir. Doğrudur, bu halı hər bir müəssisəyə şamil etmək olmaz. Lakin etiraf etmək lazımdır ki, hal-hazırda 15 kənd klub müəssisəsinin, 19 kənd kitabxanasının təmir-bərpaya, inventar-avadanlıqlara ehtiyacı vardır.

Maddi-texniki bazanın zəifliyi istər-istəməz əhaliyə göstərilən xidmətlərin səviyyəsini aşağı salır.

Musiqi məktəbinin uyğunlaşmış binada yerləşməsi, otaqların sayca azlığı şagird kontingentini artırmağa imkan vermir. Nəticədə musiqi təhsili almağa həvəs göstərən uşaqların bir qismi arzusunu reallaşdıra bilmir. Əhalinin artımı, eləcə də yaşayış səviyyəsinin yüksəlməsi ikinci musiqi məktəbinin yaradılmasını zəruri edir.

Rayon ərazisində 60-a yaxın tarix və mədəniyyət abidəsi qeydə alınmışdır. Abidələrin mühafizəsi ilə cəmi 4 nəfər məşğul olur. Abidələrin sayca çoxluğu, biri-birindən fərqli ərazilərdə yerləşməsi, nəqliyyat vasitəsinin olmaması abidələrin qorunmasında real çətinliklər yaradır.

Memarlıq abidələrinin təmir-bərpasına investisiya qoyuluşu illərdir ki, həyata keçirilmir. Tarixi yerlərin xarici görkəminin, digər infrastrukturların tələbata cavab verməməsi rayonumuzda turizmin inkişaf etdirilməsinə maneçilik törədir. Bütün bunlara baxmayaraq kollektivimiz öhtəsindən gələ bildiyi və yaxud öhtəsindən gələ bilmədiyi işləri təhlil edərək gələcəyə nikbinliklə baxır.



**Ölkə prezidenti cənab İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın milli mədəni-dəyərlərimizin qorunub saxlanması, gələcək nəsillərə ötürülməsinə göstərdikləri qayğı, respublikanın mərkəzində, eləcə də regionlarda mədəniyyət müəssisələrinin müasir görkəmə layiq qurulması, aparılan mədəni-quruculuq siyasətinin rayonumuzun timsalında icra hakimiyyəti rəhbərliyi səviyyəsində dəstəklənməsi, biz mədəniyyət işçilərinə imkan yaradır ki, üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gələk.**

● **Gülgün KƏRİMOV,**
*Ağstafa Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri*